# COVID-19: koronavirusla mübarizədə məsuliyyətli olaq

**Son həftələrdə bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da koronavirusa gündəlik yoluxma və ölüm halları artıb. Görünür, son günlər cəbhədə baş verənlər, işğalçı Ermənistanın növbəti təxribatı nəticəsində başlayan müharibə bütün cəmiyyətimiz üçün ciddi təhlükə olan koronavirus pandemiyasını unutdurub və arxa plana keçirib. Bununla da ölkəmizdə koronavirusa yoluxanların sayında artım müşahidə edilir.**

Yoluxma və sağalma halları arasında əldə olunmuş müsbət dinamika dəyişib, sanitar-epidemioloji durum pisləşir. Statistikaya nəzər yetirsək görərik ki, son sutkada koronavirus infeksiyasına 596 yeni yoluxma faktı qeydə alınıb, 322 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb, 13 nəfər isə vəfat edib. Ümumilikdə götürəndə, indiyə kimi, ölkəmizdə 57040 nəfər infeksiyaya yoluxub, onlardan 44479 nəfər müalicə olunaraq sağalıb, 753 nəfər vəfat edib, aktiv xəstə sayı isə 11808 nəfərdir. Buna görə də pandemiyanın qarşısının alınması məqsədi ilə Nazirlər Kabinetinin qərarına əsasən, ölkə ərazisində xüsusi karantin rejiminin müddəti 1 dekabr 2020-ci il saat 06:00-dək uzadılıb. Eyni zamanda son günlər Lənkəran şəhərində, Cəlilabad və Masallı rayonlarında yüksək yoluxma faktları aşkar olunduğuna görə həmin rayonlara giriş-çıxış dayandırılıb.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva son günlər ölkəmizdə COVID-19-a yoluxma sayının kəskin artımının çox böyük narahatlıq doğurduğunu söyləyib. Onun sözlərinə görə, koronavirus infeksiyası ölkəmizin bütün bölgələrində aşkarlanıb, lakin bəzi bölgələrdə vəziyyət daha ciddidir. Elə regionlar var ki, orada xəstəlik ciddi şəkildə yüksələn xətlə gedir. Bəzi bölgələrdə yoluxma daha yüksək rəqəmlərlə ifadə olunduğuna görə lokal olaraq həmin ərazilərdə karantin rejimi daha sərtləşdirilib: “Uzun aylardan bəri pandemiya ilə aparılan mübarizədə hamı yorulub. Lakin bəlkə də ən çox yorulan həkim və tibb işçiləridir. Çünki onlar artıq doqquz aya yaxındır ki, sərt rejimdə fəaliyyət göstərirlər. Qısa bir müddətdə onlar rahat nəfəs almağa imkan tapdılar və bundan az sonra indi artıq xəstəliyin ikinci dalğası baş qaldırıb. “Gözəgörünməz” düşmənlə mübarizə aparıldığı bir vaxtda sağlamlıq keşikçiləri düşmən üzərində ümumi qələbəyə öz töhfələrini vermək, bu sahədə zabit və əsgərlərə dəstək göstərmək istəyirlər. Lakin koronavirusa yoluxanların sayı artdıqca hansısa tibb müəssisələrini yenidən pandemiya xəstəxanası kimi istifadə etməyə məcbur oluruq və həmin xəstəxanalar bir gün, bəzən bir neçə saat ərzində dolur. Bir xəstəxananın ortalama çarpayı fondu 200-300 arası olur. İndiki yüksək yoluxma şəraitində tibb müəssisəsi bir günün içində xəstələrlə yüklənmiş olur. Hər şey çarpayı ilə həll olunmur, xəstələrə qulluq edən tibb personalına böyük ehtiyac var. Ona görə də bunu dərk edən hər kəs özünü koronavirus infeksiyasına yoluxmaqdan qorumalı və bu yolla bugünkü şəraitdə həkimlərə dəstək göstərməlidirlər”.




Göründüyü kimi, son aylar əldə olunan uğurlar cəmiyyətdə arxayınlıq yaradıb. Sosial məsafənin gözlənilməməsi, maskadan və dezinfeksiya vasitələrindən istifadə edilməməsi halları kütləvi hal alıb. Lakin etiraf edilməlidir ki, ölkəmizdə hazırkı müharibə şəraitində karantin qaydalarına riayət edilməsi məsələsi daha aktual olmalı, vətəndaşlar məsuliyyətlərini birə-beş artırmalıdırlar.

Əks təqdirdə isə yoluxma sayı artarsa, xüsusi karantin rejimi daha da sərtləşdirilə, yoluxma hallarının geniş yayıldığı şəhər və rayonlarla bağlı yeni məhdudiyyətlər tətbiq oluna bilər. Koronavirusa qarşı effektiv peyvəndin hələ də əldə olunmadığını nəzərə alaraq bilməliyik ki, bu təhlükəli virusla mübarizədə hazırda əlimizdəki ən güclü silah qoruyucu maskadır. Maskadan istifadə etməklə həm özümüzü, həm də ətrafımızdakıları qoruya bilərik.

Təhlükənin ön cəbhəyə ayaq açmasına, torpaqlarımızı qarış-qarış düşmən tapdağından azad edən qəhrəman əsgərlərimizin sağlamlığına koronavirusun zərər vurmasına imkan yaratmamalıyıq. Hazırda pandemiya şərtlərinə ciddi riayət etmək hər birimizin yerinə yetirməli olduğumuz vətəndaşlıq borcudur. Olduğumuz yerdən asılı olmayaraq, həm özümüzə, həm də ətrafımıza qarşı diqqətli olmalı, nümunə göstərməli, qaydaların pozulmasına dözümsüzlük nümayiş etdirməliyik. Elə bunun sayəsində həm cəmiyyətimizin, həm də cəbhədə döyüşən əsgərlərimizin sağlamlığının keşiyində dayanmış olarıq.

**Mənsumə Babayeva,**
***“İki sahil”***